# "ŞƏFFAFLIQ AZƏRBAYCAN" KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İCTİMAİ BİRLİYİ

**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az

**YANVAR-MART 2009-CU İL ƏRZİNDƏ GÖRÜLƏN İŞLƏR BARƏDƏ**

## MƏTBUAT ÜÇÜN HESABAT

1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT
2. MƏRKƏZLƏRİN FƏALİYYƏTİ HAQQINDA MƏLUMAT
3. DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR İLƏ ƏMƏKDAŞLIQ
4. MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI
5. UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR

### 1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

1993-cü ildə təsis olunan "Transparency International" (Beynəlxalq Şəffaflıq) təşkilatı beynəlxalq qeyri-hökümət təşkilatıdır və dünyada aparıcı antikorrupsiya hərəkatıdır. Beynəlxalq Şəffaflıq təşkilatının katibliyi Berlin şəhərində təsis olunub və milli bölmələrin köməyi ilə 90-dan çox ölkədə antikorrupsiya fəaliyyətlərini əlaqələndirir. Bölmələr müstəqil yerli QHT-rı olaraq öz siyasətlərini azad seçirlər və fəaliyyətlərini davam etdirmək üçün fondlarını artırırlar. "Şəffaflıq Azərbaycan" İctimai Birliyi 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyəti və elmi nümayəndələr tərəfindən təsis olunmuşdur. 2001-ci ildə "Şəffaflıq Azərbaycan" təşkilatına milli bölmə statusu verilmişdir.

2005-ci il Aprel ayının 1-dən etibarən "Şəffaflıq Azərbaycan" İB, MDB ölkələri arasında ilk dəfə olaraq yeni "ALAC" (İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri) layihəsini həyata keçirir. Layihə ilk əvvəl Bakı və Gəncə olmaqla 2 mərkəz vasitəsi ilə fəaliyyət göstərirdisə, bu gün artıq 5 mərkəz (Quba, Lənkəran, Şəki) vətəndaşlara müxtəlif pulsuz xidmətlər göstərir. Bakı ofisi 2005-ci il iyul ayının 1-dən, 1 Avqust 2005-ci il tarixdən Gəncə

mərkəzi, Lənkəran mərkəzi 1 İyul 2006-cı il tarixdən və Quba mərkəzi 1 Avqust 2006-cı il tarixdən, Şəki mərkəzi isə 1 Fevral 2007 ci il tarixdən tam fəaliyyət göstərir.

Hər bir şəxs aşağıdakı telefonlar vasitəsilə mərkəzlərə müraciət edə və pulsuz hüquqi yardım ala bilər.

- **Qaynar xətt Bakı 088 707 07 07 və yaxud (12) 497 68 15**
- **Qaynar xətt Gəncə 088 202 02 02 və yaxud (22) 56 55 97**
- **Qaynar xətt Lənkəran 088 303 03 03 və yaxud (171) 5 17 25**
- **Qaynar xətt Quba 088 404 04 04 və yaxud (169) 5 14 91**
- **Qaynar Xətt Şəki 088 505 05 05 və yaxud (177) 4 26 55**

Layihə, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD təşkilatı), eləcə də ATƏT-in Bakı ofisinin qrant dəstəyi əsasında həyata keçirilir. Bu layihə bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa İttifaqına üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

Layihənin məqsədi vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir.

Layihənin başlıca missiyası isə vətəndaşlara korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi-nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi prosedurаlarına əsaslanır. Lakin layihə, vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

**Layihə beş istiqamətdə həyata keçirilir:**

- **Hüquqi məsləhət**
- **Maariflənmə və məlumatlandırma**
- **İctimai maraqların müdafiəsi**
- **Dövlət orqanlarının institusional inkişafına yardım**
- **Mobil treninq və seminar**

**Hüquqi məsləhət:** Hüquqi məsləhət vətəndaşlara öz hüquqlarının bərpası və qorunması üçün effektli hüquqi mexanizmlərin istifadə edilməsi və dövlət orqanlarına müraciətlərin hazırlanmasına dair məsləhətlərin verilməsi istiqamətində keçirilən fəaliyyətdir.

**Maariflənmə və məlumatlandırma:** Bu fəaliyyət növü vətəndaşların və ictimaiyyətin antikorrupsiya sahəsində maariflənməsini nəzərdə tutur.

**İctimai maraqların müdafiəsi:** Bu fəaliyyət verilən hüquqi məsləhətlərin və maariflənmənin əsasında dövlətin müvafiq siyasətini, institusional təcrübəsini, qanunvericiliyin və pozuntulara görə məsuliyyəti təkmilləşdirmək məqsədilə həyata keçirilir.

**Dövlət orqanlarının institusional inkişafına yardım:** Bu fəaliyyət nəticəsində bir neçə dövlət orqanlarının qaynar xətlərinin, korrupsiyaya mübarizə üzrə ixtisaslaşmış işçi qruplarının və s. yaradılmasına və fəaliyyət göstərmələrinə köməklik göstərilməsi nəzərdə tutulur.

**Mobil treninq və seminarlar:** Bu fəaliyyət ərzində mərkəz hüquqşünasları könüllülərin köməyi ilə müxtəlif hədəf qrupları (əsasən kənd əhalisi ilə) üçün görüş keçirir, mobil antikorrupsiya təlimlərini keçirir və yerlərdə pulsuz hüquqi yardım göstərirlər.

2006-cı ilin May ayında yaradılmış Şəffaflıq Azərbaycan təşkilatının və "ALAC" layihəsinin İnternet səhifələri birləşdirilərək bir səhifədə - www.transparency.az – cəmləşdirilib və vaxtaşırı məlumatlarla yenilənir.

## 2. MƏRKƏZLƏRİN FƏALİYYƏTİ HAQQINDA MƏLUMAT

- *Seminar və Tədbirlər*

**Layihənin işçi heyəti hesabat dövrü ərzində müxtəlif təşkilatlar tərəfindən təşkil olunan və həmçinin özlərinin təşkil etdiyi seminar, dəyirmi masa və konfranslarda iştirak etmiş və həmçinin yerləşdikləri ərazi üzrə yaşayan əhaliyə korrupsiya ilə bağlı mübarizə üzrə maarifləndirmə məqsədi ilə seminarlar təşkil ediblər.**

Aşağıda ayrı-ayrı mərkəzlərdə keçirilən tədbirlər haqqında qısa məlumat verilib:[1]

Layihənin Bakı mərkəzin əməkdaşları "Transparency International" təşkilatının Berlindəki qərargahı ilə birlikdə Bakıda Avropa, Mərkəzi Asiya, Sakit okeanı və Aralıq dənizi regionu ölkələri üçün regional treninqlər təşkil etmişdirlər. Treninqlər zamanı Rusiya, Gürcüstan, Pakistan, Monqolustan, Papua Yeni Qvineya, Vanuatu, Fici, Livan, Mərakəş, Fələstin və sair ölkələrdən olan iş yoldaşlarımız "İctimai Maraqların Qorunması və Hüquqi Məsləhət Mərkəzləri" - in (ALAC) layihəsinin qurulması və iş mexanizmi ilə tanış olmuşdurlar ki, həmin layihə Şəffaflıq Azərbaycan" təşkilatı tərəfindən Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq sayəsində 2005-ci ildən uğurla həyata keçirilir. Məlumat üçün xatırladaq ki, belə bir treninqlər 2008-ci ilin yanvar və fevral aylarında Qazaxstan və Qvatemala ölkələri üçün də Bakıda keçirilmişdir. Bununla əlaqədar Gürcüstan, Pakistan, Vanuatu, Qazaxstan və Qvatemala ölkələrində də artıq ALAC layihəsi fəaliyyətə başlayıb.



**Yuxarıda şəkildə:** Avropa, Mərkəzi Asiya və Sakit okeanı regionu ölkələri üçün regional treninq

[1] ***Hesabatda yalnız hər mərkəz üzrə bir seminar işıqlandırılıb. Mərkəzlərin keçirdiyi digər seminarlar haqqında əlavə məlumat almaq üçün Layihənin İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis Samir Əlibəyov ilə 418-11-09 nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.***

"Şəffaflıq Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" (ALAC) layihəsi üzrə fəaliyyət göstərən Lənkəran Regional Mərkəzinin əməkdaşları ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən maliyyələşdirilən "Azərbaycan Parlament Proqramı" layihəsi çərçivəsində Azərbaycan Respublikası Milli Məclis deputatlarının köməkçiləri üçün keçirilmiş təlimlərdə ekspert qismində iştirak etmişlər. DAI konsaltinq şirkətinin dəstəyi ilə "Azərbaycan Parlament Proqramı" çərçivəsində həyata keçirilmiş tədbirlərdə mərkəzlərin əməkdaşları iştirakçılara ALAC layihəsinin fəaliyyəti ilə bağlı geniş müzakirələr aparmış, korrupsiyaya qarşı mübarizə haqqında beynəlxalq və milli hüquqi sənədlər haqqında məlumat və praktiki məsləhətlər vermişdilər. Müzakirələr zamanı tədbir iştirakçıları vətəndaşların problemlərin həllində köməkçi vasitələrdən biri kimi ALAC layihəsinin vacibliyini xüsusi qeyd etdilər. Nəzərinizə çatdıraq ki, eyni bir tədbirdə də Gəncə Regional Mərkəzinin əməkdaşları da ekspert qismində iştirak etmişlər.



**Yuxarıda şəkildə:** Azərbaycan Respublikası Milli Məclis deputatlarının köməkçiləri üçün təlim

Layihənin Gəncə mərkəzi Gəncə Uşaq Rəssamlıq Məktəbində tələbələrin iştirakı ilə "Korrupsiyaya qarşı Mübarizə Uşaqların Gözü ilə" devizi altında müsabiqə keçirdi. On üç nəfərin iştirakı ilə təşkil olunmuş müsabiqənin keçirilməsində əsas məqsəd korrupsiyaya qarşı mübarizəni gündəmdə saxlamaq və yeniyetmələrə korrupsiyaya qarşı mübarizə düşüncəsini aşılamaq idi. Müsabiqənin sonunda 1-ci, 2-ci və 3-cü yerləri tutmuş rəssamlar müəyyən olunlu və seçilənlərə hədiyyələr təqdim olundu.



**Yuxarıda şəkildə:** Gəncə Uşaq Rəssamlıq Məktəbində müsabiqə

Layihənin Quba mərkəzi rayonun 6 saylı orta məktəbin müəllim heyəti üçün seminar keçirmişdir. Treninqdə eyni zamanda "Transparency International" təşkilatının Berlindəki qərargahın əməkdaşları və "İctimai Maraqların Qorunması və Hüquqi Məsləhət Mərkəzləri" -in (ALAC) layihəsinin qurulması və iş mexanizmi ilə tanış olmağa gələn Livan, Mərakəş və Fələstin ölkələrindən olan iş yoldaşlarımız da iştirak etmişlər. Maarifləndirmə xarakteri daşıyan təlim zamanı, vətəndaşların nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında məlumat verilib və təşkilatın həyata keçirdiyi layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırılıb və şikayəti olan iştirakçılara pulsuz hüquqi yardım göstərilib.



**Yuxarıda şəkildə:** Orta məktəbin müəllim heyəti üçün seminar

Layihənin Şəki Mərkəzinin könüllüləri Sülh Korpusun könüllüsü ilə birgə Gənclər Fondundan udulmuş qrant hesabına gənclərin problemləri ilə bağlı qisametrajlı film hazırlamışdırlar. Həmin filmdə gənclərin rastlaşdığı problemlərdən və asudə vaxtların necə keçirdiyindən bəhs edilir. Asudə vaxtlarını səmərəli keçirmənin nümunəsi kimi "Şəffaflıq Azərbaycan" təşkilatının Şəki mərkəzində çalışan könüllülərin fəaliyyəti haqqında da kadrlar öz əksini tapıb. Halbuki, təşkilatin bütün mərkəzlərində könüllülər üçün hüquq resurs mərkəzlərindən və sürətli İnternet xidmətindən istifadə etmək, habelə ingilis dili və kompüter bilikləri kurslarını təmənnasız öyrənmək imkanları yaradılmışdır. Uluçay Xeyriyyə Cəmiyyətində medianın iştirakı ilə keçirilən filmin təqdimat mərasimində "Şəffaflıq Azərbaycan" təşkilatın Şəki mərkəzin əməkdaşları da iştirak etmişlər.



**Yuxarıda şəkildə:** Filmin təqdimat mərasimi zamanı

## 3. DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR İLƏ ƏMƏKDAŞLIQ

Qış imtahan sessiyası zamanı Təhsil Nazirliyi yanında Korrupsiya qarşı mübarizə Şurasının üzvləri tərəfindən Bakı şəhərinin təhsil müəssisələrində imtahanların monitorinqi keçirilmişdir. Monitorinq həm Nazirlik, həm də Şuranın üzvləri olan QHT-lərın əməkdaşların iştirakı ilə həyata keçirilmişdir. Şuranın üzvlərindən olan "Şəffaflıq Azərbaycan" Korrupsiya qarşı Mübarizə İctimai Birliyinin Bakı mərkəzin əməkdaşları həmçinin 3 təhsil müəssisəsində - Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Dövlət Universiteti - monitorinqdə iştirak etmişlər.

Layihənin Şəki mərkəzinin hüquqşünası hesabat dövrü ərzində ATƏT-in xahişi ilə Zaqatala rayonunda məhkəmə sessiyaların monitorinqini həyata keçirmişdir.

Hesabat dövrü ərzində Təşkilatın Bakı, Gəncə, Lənkəran, Quba və Şəki mərkəzləri beynəlxalq və yerli QHT-lər və Dövlət Strukturları tərəfindən təşkil olunmuş bir sıra tədbirlərdə iştirak etmişlər və bir sıra təşkilatlarda görüşlər keçirmişlər. Bunlardan USAİD, DAİ Parlament Layihəsi, ATƏT, Yuva Humanitar Mərkəzi, Project Harmony (PH) International, Milli və Beynəlxalq Təhqiqatlar Mərkəzi, "Qadınlar arasında Həmrəylik" İB, Chemonics, Norveç Humanitar Agentliyi, Beynəlxalq Demokratiya İnstitutu, "Bacarıqlı Qadınlar" İB, Gənclər və İdman Nazirliyi, Qavqaz Media Təhqiqatlar Mərkəzi və sairləri göstərmək olar.

"Transparency International" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin mərkəzləri həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsi, habelə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində təlimlər keçiriblər. Belə ki, hesabat dövrü ərzində layihənin **Bakı mərkəzi** – Azərbaycan Müəllimlər İnstitutun və Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutun orta məktəblərin müəllim heyəti, **Quba mərkəzi** – Xaçmaz rayonun Bolludərə, Mehrəli Qışlaq, Qaradağ Buduğ, Qarabağı, Aşagı Zeyid, Sərkərli, Qaracıq Zeyid, Şollar və Quba rayonun Qələduz, Üçgün və Küpçal kəndlərin məktəblərinin müəllim heyətləri və sakinləri, Quba şəhər 6 saylı orta məktəbin müəllim heyəti üçün, **Şəki mərkəzi** - Şəki rayonun Bolludərə, Qaratorpaq, Kosalı, Çələbixan, Baş Göynük, Baş Şabalıd, Abbas və Aşağı Göynük kəndlərin məktəblərinin müəllim heyətləri və sakinləri üçün seminarlar keçirmişdir. Bu təlimlərin keçirilməsində kənd bələdiyyələrin, yerli icra nümayəndələrin və məktəb rəhbərliyin dəstəyi olmuşdur.

Mobil seminar xarakteri daşıyan təlimlər zamanı, vətəndaşların nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında, habelə, "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın" icrası üzrə tədbirlər planı, təşkilatının fəaliyyət istiqamətləri və həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırıblar və şikayəti olan vətəndaşlara yerində pulsuz hüquqi yardım göstəriblər.

Beş yüzdən yuxarı iştirakçıları əhatə etmiş seminarlar zamanı şikayət olunan sahələr arasında əsasən Bələdiyyələr, Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti, Azərenerji, Azəriqaz, Məhkəmələr, Polis və sair sahələr də vardır.

Layihə, yerli QHT-lər ilə sıx qarşılıqlı əməkdaşlıq edirlər. Bir çox hallarda təşkilat yerli QHT-lərə müraciət edərək birgə tədbirlərin keçirilməsi təklifi ilə çıxış edir. Bəzi hallarda isə müxtəlif QHT-lər təşkilatın yerli ofislərindən müəyyən tədbirlərin keçirilməsi üçün istifadə edirlər.

## 4. MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI

Layihə, qeyd olunan hesabat dövrü ərzində 5 mərkəz daxil olmaqla 1,342 ilkin zəng və şikayət qəbul edib: Bakı (200), Gəncə (330), Lənkəran (207), Quba (316) və Şəki (289).

*Aşağıda göstərilən diaqram hər beş mərkəz üzrə qəbul olunan şikayətlərin rəqəmlə ifadə olunması göstərilir.*




## Şikayətçilərin cinsi

Şikayətçilərin cinsi nisbəti ilə götürsək, kişilər qadınlara nisbətən daha çox şikayət ilə mərkəzlərə müraciət edirlər. Bu hal özünü daha çox kənd yerlərində büruzə verir. Buna əsas verən amillərdən biri isə görüşlərin çay evi və ya ofis daxilində keçirilməsidir. Gəncə və Quba şəhərlərində qadınların iştirak faizi daha yüksəkdir.

*Aşağıda göstərilən diaqramda hər beş mərkəzə hesabat dövrü ərzində müraciət edən şikayətçilərin cinsi nisbətini göstərilib:*

| Şikayətçilərin cinsi | Bakı XVI rüb | Gəncə XVI rüb | Lənkəran XVI rüb | Quba XVI rüb | Şəki XVI rüb |
|---|---|---|---|---|---|

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| A | Kişi | 137 | 197 | 148 | 204 | 191 |
| B | Qadın | 63 | 133 | 59 | 112 | 98 |
| C | **Şikayətlərin ümumi sayı** | 200 | 330 | 207 | 316 | 289 |

**Şikayətçilərin yaşı**

Lənkəran, Quba və Şəki mərkəzlərində ən aktiv yaş qrupu orta yaşlı əhali hesab edilir. Gəncə mərkəzində yaşlı əhalinin daha aktiv olması da müşahidə olunur.

| **Yaş qrupu** | | **Bakı XVI rüb** | **Gəncə XVI rüb** | **Lənkəran XVI rüb** | **Quba XVI rüb** | **Şəki XVI rüb** |
|---|---|---|---|---|---|---|
| A | < 20 | 2 | 3 | 0 | 4 | 3 |
| B | 20 – 35 | 41 | 10 | 38 | 98 | 43 |
| C | 35 – 50 | 68 | 68 | 122 | 107 | 105 |
| D | 50 – 65 | 37 | 166 | 27 | 83 | 44 |
| E | 65 + | 8 | 83 | 5 | 20 | 19 |
| F | Müəyyən deyil | 44 | 0 | 15 | 4 | 75 |
| **G** | **Ümumi say** | 200 | 330 | 207 | 316 | 289 |

**Şikayətçilərin coğrafi yerləşməsi**

Layihənin ilkin həyata keçirilmə mərhələlərində hüquqi yardım əsasən şəhər əhalisinə edilirdisə, son rüb dövründə Quba və Şəki regional mərkəzləri kənd yerlərində mobil təlimlər keçirmək yolu ilə daha çox kənd əhalisinin ehtiyacları ilə məşğul olublar.

**Şikayətlər ilkin olaraq necə qəbul olunur**

Vətəndaşların telefon vasitəsilə əvvəlcədən görüş təyin etməkdən çox sadəcə gəlməyə üstünlük vermək tendensiyası çoxalmaqdadır. Telefon zəngi və Layihə ofisinə gəlmə ən geniş yayılmış metoddur. Bir çox hallarda regional mərkəz əməkdaşları özləri ayrı-ayrı kəndlərə səfər edir və mövcud olan problemlərlə yerində tanış olurlar.

**Şikayətlərin ünvanlandığı sahələr**

Bu rüb ərzində mərkəzlər üzrə şikayətlərin ən çox ünvanlandığı sahələr müxtəlifdir. Belə ki, şikayətlərin ən çox ünvanlandığı sahələrdən Bakı, Lənkəran və Şəki mərkəzlərində - kommunal xidmətlər və Gəncə və Quba mərkəzlərində - məhkəmə sistemi qeyd etmək olar. Digər sahələrə isə polis, pensiya və ünvanlı sosial yardım və bələdiyyələr aiddir.
Keçən rüblə müqayisədə təhsillə ilə bağlı şikayətlərin sayı azalıb. Bu da Təhsil Nazirliyin nəznində movcud olan qaynar xəttlin üğurla fəaliyyət göstərməsi ilə əlaqədardır.

**Şikayətlərin sahələr üzrə bölgüsü – 16 rüb (ümumi sayı – 1,342)**




| Sahələr üzrə | | Bakı XVI rüb | Gəncə XVI rüb | Lənkəran XVI rüb | Quba XVI rüb | Şəki XVI rüb |
|---|---|---|---|---|---|---|
| A | Məhkəmə | 32 | 84 | 11 | 107 | 33 |
| B | Səhiyyə | 4 | 5 | 6 | 0 | 6 |
| C | Təhsil | 3 | 9 | 3 | 9 | 7 |
| D | Gömrük | 0 | 0 | 0 | 1 | 0 |
| E | Vergi/Maliyyə | 4 | 0 | 0 | 0 | 5 |
| F | Polis | 21 | 43 | 12 | 20 | 24 |
| G | Lizensiyalar (tikinti və s.) | 0 | 0 | 0 | 0 | 0 |
| H | Alqi-satqı | 0 | 6 | 0 | 0 | 2 |
| I | Özəlləşdirmə | 10 | 0 | 1 | 7 | 6 |
| K | Inspeksiya | 0 | 0 | 0 | 0 | 0 |
| L | İcra orqanları | 3 | 11 | 8 | 7 | 8 |
| M | Pensiya və ünvanlı sosial yardım | 18 | 70 | 5 | 14 | 36 |
| N | Əmək mübahisəsi | 0 | 0 | 2 | 8 | 18 |
| O | Bələdiyyə | 0 | 30 | 26 | 50 | 9 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| P | Prokurorluq | 17 | 59 | 1 | 0 | 1 |
| Q | Özəl sektor | 3 | 0 | 0 | 30 | 11 |
| R | Hərbi Kommisarlıq | 9 | 0 | 1 | 0 | 8 |
| S | Kommunal xidmətlər | 41 | 13 | 131 | 45 | 94 |
| T | Müəyyən deyil | 35 | 0 | 0 | 18 | 21 |
| U | Müxtəlif sahələr üzrə ünvanlanan şikayətlərin ümumi sayı | 200 | 330 | 207 | 316 | 289 |

**<u>Şikayətlərin sahələr üzrə bölgüsü - layihə boyu (ümumi sayı – 18,505)</u>**



## 6. UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR[2]

### Bakı mərkəzi üzrə

**Məsələ həll olundu –** Vətəndaş Azərbaycan Hava Yollarının əməkdaşlarının qanunsuz hərəkətlərindən şikayət etmişdır və bəzi Təşkilatın müraciətindən sonra daxil olmuş məktubda deyilir ki, araşdırma aparılmış, qanunu pozmuş əməkdaşlar cəzalandırılmış və hətta işdən də azad olunmuşdur.

**İnzibati saksiyalar verildi** – Vətəndaşın Dövlət Yol Polisi (DYP) əməkdaşlarının qanunsuz hərəkətlərindən şikayəti daxil olmuşdur. Təşkilatın müraciətindən sonra 2 nəfər DYP əməkdaşı vəzifələrindən sui istifadə etdiklərinə görə inzibati tənbehə cəlb olunmuşlar.

**Vətəndaşa təzminat ödənildi** – Əmək hüquqların pozulmasından şikayətlənən vətəndaş mərkəzə ərizə ilə müraciət etmiş. Rəsmi müdaxilədən sonra məktub daxil olmuş və vətəndaşa təzminatın tam ödəniləcəyi göstərilmişdir.

**Vətəndaşa yazılmış borc silinmişdir** – Vətəndaş Bakelektrik şəbəkəsi tərəfindən ondan artıq borc ödəməsi tələbindən şikayət etmişdir. Müraciətdən sonra birinci mavin bildirmişdir ki, vətəndaşın borcu yoxdur.

**Məhkəmə qərarı icra olunur** – Vətəndaş məhkəmə qərarının icra olunmamasından şikayət etmişdir. Təşkilatın müraciətindən sonra qərarın icraatı təmin olunmuşdur.

### Gəncə mərkəzi üzrə

**Müraciətçiyə şəxsiyyət vəsiqəsi verilmişdir** - Müraciətçi bildirmisdir ki, şəxsiyyət vəsiqəsi almaq üçün sənədləri təqdim etməsinə baxmayaraq, o, şəxsiyyət vəsiqəsini ala bilməmişdir. Mərkəzin müdaxiləsindən sonra araşdırılma aparılmış və müəyyən olunmuşdur ki, həqiqətən də müraciətçinin sənədləri pasport–qeydiyyat bölməsinə təqdim olunmuş və müraciətçi süründürməçiliklə üzləşmişdir. Müraciətçiyə şəxsiyyət vəsiqəsi verilmiş, bölmənin əməkdaşlarına nöqsanlara yol verdikləri üçün xəbərdarlıq edilmişdir.

**Ünvanlı sosial yardım təyin olunmuşdur** - Müraciətçi ərizəsində bildirir ki, ünvanli sosial yardım almaq üçün müraciət etmiş və təyin olunması üçün ondan 150 AZN rüşvət istəmişlər. Mərkəzin müdaxiləsindən sonra müraciətçinini sənədləri müvafiq qaydada qəbul olunmuş və ona ünvanli sosial yardım təyin olunmuşdur.

**Vətəndaşın müraciəti həllini tapdı** - Müraciətçi bildirir ki, onun uşaqların hüquqları təhsil aldıqları orta məktəbdə müəllimləri tərəfindən pozulmuşdur. Nazirlikdən gələn cavabda bildirilir ki, araşdırılma aparılmış, nəticə məktəb pedaqoji şurasında müzakirə olunmuş, şagirdlərin biliyinin qiymətləndirilməsi və qiymətlərin məktəb sənədlərinə köçürülməsində ciddi nöqsanlara yol verdiyinə görə müəlliməyə töhmət verilmiş, məktəb sənədlərinin aparılmasına zəif nəzarət etdiynə görə təlim–tərbiyə işləri üzrə direktor müavininə xəbərdarlıq elan olunmuşdur. Məktəbin fəaliyyətinin nəzarətə götürülməsi barədə rayon təhsil şöbəsinə müvafiq tapşırıq verilmişdir.

---

[2] *Burada yalnız uğurla həll edilmiş işlərin yalnız bəziləri qeyd olunub. Uğurlu işlərin tam siyahısını əldə etmək üçün 418 11 09 və ya 596 20 38 telefon nömrələri ilə "Şəffaflıq Azərbaycan" İB-yi ilə əlaqə saxlaya bilərsiniz.*

**Doğum haqqında şəhadətnamə rüşvətsiz verilmişdir** - Müraciətçi bildirmişdir ki, 2 uşağının doğum haqqında şəhadətnaməsi itdiyi üçün VVAQ şöbəsinə müraciət etmişdir. Müraciətçidən hər bir doğum haqqında şəhadətnamənin verilməsi üçün 50 AZN pul tələb olunmuşdur. Mərkəzin müdaxiləsindən sonra müraciətçi hər bir doğum haqqında şəhadətnamə üçün 2 AZN dövlət rüsumu köçürmüş və şəhadətnamələri almışdır.

**Sənədlərin surətləri təsdiq olunmuşdur** - Müraciətçi ofisə müraciət edərək bildirdi ki, ondan sənədlərin surətinin təsdiqi üçün 25 AZN pul tələb olunmuşdur. Mərkəzin müdaxiləsindən sonra müraciətçinin sənədlərinin surəti dövlət rüsumları ödənilərək notariat qaydada təsdiq olunmuşdur.

**Məhkəmə qərarı icra olunmuşdur** - Aliment tutulması ilə bağlı məhkəmə qətnaməsi icra olunmadığı üçün dəfələrlə məhkəmə icraçıları bölməsinə müraciət etməsinə baxmayaraq, qətnamə icra olunmamışdır. Mərkəzini müdaxiləsindən sonra aliment borcludan tutulmağa başlamışdır.

**Əmək haqqı ödənilmişdir** - Müraciətçi bildirmişdir ki, 6 aylıq əmək haqqı ödənilmir. Dəfələrlə müraciət etiməsinə baxmayaraq, heç bir nəticə əldə edə bilməmişdir. Mərkəzin müdaxiləsindən sonra müfəttişlikdən gələn cavabda bildirilir ki, araşdırma aparılmış, müraciətçinin əmək haqqısı ödənilmişdir.

## Lənkəran mərkəzi üzrə

**Vətəndaşın kartı hazırlanmışdır –** Vətəndaş vəfat etmiş ərinin pensiya kartının ala bilməməsindən şikayət etmişdir. Təşkilatın müraciətindən sonra daxil olan cavaba əsasən kart hazırdır, vətəndaş artıq kartı ala bilər.

**Sayğac dəyişdirildi** – Vətəndaş Paylayıcı elektrik şəbəkəsi tərəfindən siradan çıxmış sayğacın dəyişdirilməməsindən şikayət etmişdir. Daxil olan məktubda bildirilir ki, sayğac dəyişdirilib.

**İş həll olunmuşdur** – Vətəndaş onun icazəsi olmadan yoldaşı tərəfindən uşaga öz soyadı ilə doğum şəhadətnaməsi götürməsindən şikayət etmişdir. Müraciətdən sonra iş yenidən məhkəməyə verilmiş, işə ədalətli baxılmış və həll olunmuşdur.

**Sənədlər vətəndaşa qaytarılıb** – Vətəndaş Dövlət Yol Polisin əməkdaşlarının onu əsassız olaraq cərimə edib, rüşvət tələb etmələrindən şikayət etmişdir. Təşkilatın rəsmi müraciətindən sonra vətəndaşdan cavab aldıq ki, polis şöbəsinə dəvət olunub, bütün xərcləri ödənilib, sənədlər ona qaytarılmışdır.

## Quba mərkəzi üzrə

**Vətəndaşlara subsidiyalar verildi** – Vətəndaşlar mərkəzə müraciət edərək onların əkin sahəsinin becərilməsi üçün verilən subsidiyanın bələdiyyə sədri tərəfindən mənimsənilməsindən şikayət etmişdirlər. Mərkəzin müraciətindən sonra rayon prokurorluğundan cavab daxil olmuş, işin baxılması üçün Ədliyyə Nazirliyinin nəznində Bələdiyyələrlə iş üzrə Mərkəzinə göndərildiyi bildirilmişdir. Nəticə etibarı ilə vətəndaşlar şəxsən ofisə gələrək onlara çatan subsidiyanın bələdiyyə sədri tərəfindən qaytarıldığı bildirmişlər.

**Vətəndaşın şikayətinə baxıldı** - Vətəndaş mərkəzə gəlib Polis Şöbəsi tərəfindən onun şikayətinə baxılmaması və cavablandırılmamasından şikayətlənmişdir. Təşkilatın müraciətindən sonra vətəndaş ofisə gələrək ona rəsmi cavab verildiyini bildirmişdir.

**Müavinat ödənildi** – Vətəndaş yeni anadan olan uşağa görə müavinatın verilməməsinə görə Dövlət Sosial Müdafiə Fondundan şikayətlə müraciət etmişdir. Daxil olan məktubun cavabına əsasən vətəndaşin müavinəti ödənildiyi bildirilmişdir.

**Pensiya yenidən hesablandı** - Pensiyanın düzgün hesablanmamasından şikayətlənən vətəndaş mərkəzə müraciət etmişdir. Təşkilatın müdaxiləsindən sonra ofisə rəsmi məktub daxil olub, pensiya yenidən hesablanmış və təxminən 3 dəfəyə qədər artırılmışdır.

**Məsələ müsbət həll olundu** - Vətəndaş Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti tərəfindən çıxarışın verilməməsi və səbəbin izah edilməməsindən şikayət etmişdir. Lahiyənin köməyi nəticəsində vətəndaş şəxsən ofisə gələrək çıxarışın aldığını bildirib.

**Müraciəti müsbət həll olundu** - Elektrik enerjisinin sərfiyyatına görə artıq ödəmə tələbi ilə vətəndaş mərkəzə müraciət etmişdir. Təşkilatın müraciətinə əsasən vətəndaş şəxsən müraciət edərək məsələnin həll edildiyin bildirmiş.

**Qətnamə icra edilməkdədir** - Vətəndaş icra vərəqəsinin verilməməsinə görə Appelyasiya məhkəməsindən şikayət etmişdir. Təşkilatın müraciətindən sonra mərkəzə məktub daxil olub, qətnamənin icra edilməsi üçün rayon məhkəməsinə göndərildiyi bildirilir.

## Şəki mərkəzi üzrə

**Əmək haqqılar ödənildi** – İşçilərin əmək hüquqlarının pozulmasına dair kollektiv müraciət daxil olmuşdur. Təşkilatın müraciətindən sonra AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyindən məktub daxil olmuş və buna əsasən vətəndaşlara ödənilməmiş əmək haqlarının verilməsi tam təmin edilmişdir.

**Sənədlərin alınması üçün tapşırıq verilmişdir** – Yenə də daxil olmuş kollektiv şikayətə əsasən vətəndaşlar torpaqayırma sənədlərinin rəsmiləşdirilməməsindən şikayətlənirdilər. Mərkəzin müdaxiləsindən sonra bələdiyyənin ehtiyat fondundan torpaq payı ölçülərək verilmiş, mülkiyyət hüququna dair Dövlət Aktının alınması üçün lazım olan sənədlər hazırlanaraq aidiyyati üzrə təqdim olunmuşdur.

*2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihənin məqsədi "Vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir". Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), ATƏT-in Bakı ofisinin və Böyük Britaniya Xarici İşlər Nazirliyinin "Qlobal İmkanlar Fondu"nun maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz. "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi və onun həyata keçirdiyi layihə ilə bağlı əlavə məlumat almaq üçün təşkilatın icraçı direktoru xanım Rəna Səfərəliyevadan müsahibə götürə bilərsiniz.*